Kaspi 2019.- 12 sentyabr.- S.12.



# Şəki teatrı "Yaşasın teatr" deyəcək





**Şəki Dövlət Dram Teatrı 140-cı mövsümə başlayır. Açılış sentyabırın 17-də Jan Batist Molyer və Mixail Bulqakovun əsəsrləri əsasında ərsəyə gəlmiş "Xəstəlik xəstəsi və ya Yaşasın teatr" tamaşası ilə gerçəkləşəcək.**

Ötən mövsümdə səhnəyə qoyulan əsər böyük rezonans doğurduğundan açılış da məhz bu tamaşa ilə olacaq. Tamaşa Azərbaycanın əməkdar incəsənət xadimi Hüseynağa Atakişiyevin anadan olmasının yetmiş illiyinə həsr ediləcək. Əsas mövzusu savadsız və bacarıqsız həkimlər olan komediya Molyerin son əsəri və ən son rol aldığı tamaşasıdır. Şəki Dövlət Dram Teatrının hazırladığı tamaşanın da özəlliyi ondan ibarətdir ki, tamaşaçılar "Xəstəlik xəstəsi" əsəri fonunda Molyerin son anlarını izləmiş olacaqlar. Əsər həm də ömrünü teatr səhnəsinə həsr edən aktyor və aktrisalara ithaf olunub. Tamaşanın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Mirbala Səlimli, quruluşçu rəssamı Nicat Məmmədov, geyim üzrə rəssamı Sahib Əhmədov, musiqi tərtibatçısı Zeynəb Orucovadır.

140-cı mövsümdə Şəkidə peşəkar teatrın yaranmasının 140 illiyi münasibəti ilə təntənəli yubiley tədbirinin keçirilməsi də nəzərdə tutulub. Təbii ki, bu tədbirlər mövsüm boyu silsilə şəkildə davam edəcək. Bundan əlavə,Cəfər Cabbarlının anadan olmasının 120 illiyi münasibəti ilə "Sevil" pyesi tamaşaya qoyulacaq. Eyni zamanda, Altay Məmmədovun "Kitabi Dədə Qorqud" dastanının motivləri əsasında yazdığı "Dəli Domrul" əsəri səhnələşdiriləcək ki, bu tamaşa, əsasən, gənclər və uşaqlar üçün nəzərdə tutulub.